**Qəhvəyi mərmər bağacığına qarşı keçirilən fitosanitar tədbirlərə dair məlumat**

**(22 oktyabr 2025)**

Qəhvəyi mərmər bağacığının populyasiya sıxlığının azaldılması və yayılmasının qarşısının alınması məqsədilə Qida Təhlükəsizliyi Agentliyinin Quba-Xaçmaz regional bölməsinin fitosanitar müfəttişləri tərəfindən Xaçmaz rayonunun Yalama kəndində növbəti maarifləndirmə tədbiri keçirilib.

Regional bölmənin əməkdaşları tərəfindən payız-qış mövsümündə zərərvericiyə qarşı aparılması zəruri mübarizə üsulları barədə kənd sakinlərinə ətraflı məlumat verilib, maarifləndirici çap materialları paylanıb. Qəhvəyi mərmər bağacığı ilə mübarizədə əhalinin aktiv iştirakının vacibliyi vurğulanıb.